*UOT 371*

***Ruqiyyə Məmməd qızı Babaşova,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi*

***Sevinc Soltanməcid qızı Baxşıyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi*
https://orcid.org/0009-0002-4296-5751

# İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİNDƏ ÖYRƏNMƏ NƏZƏRİYYƏSİ

***Ругия Мамед гызы Бабашова,***
*преподаватель Шемахинского филиала Азербайджанского Государственного Педагогического Университета*

***Севиндж Солтанмежид гызы Бахшиева***
*преподаватель Шемахинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# ТЕОРИЯ ОБУЧЕНИЯ В ПРИМЕНЕНИИ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ

***Rugiya Mammad Babashova,***
*lecturer at Shamakhi branch of Azerbaijan State Pedagogical University*

***Sevinc Soltanmacid Baxshiyeva***
*lecturer at Shamakhi branch of Azerbaijan State Pedagogical University*

# THEORY OF LEARNING IN THE APPLICATION OF INTERACTIVE LEARNING METHODS

**Xülasə.** Məqalədə təhsilin məzmununun dəyişməsinə təsir edən yeni metod və üsulların tətbiqi əhəmiyyətindən bəhs olunur. İnteraktiv metod pedaqoji təlim üsulu kimi müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələri (dərslik, xəritə, cədvəl, texniki vəsaitlər və s.) və ya bir-birilə ünsiyyət prosesində yeni biliklər əldə etməsinə imkan verən bütün təlim üsullarının məcmusundan ibarətdir. Kurikulum interaktiv tədris planlarının hazırlanması deməkdir. Nəticəyə əsaslanan planlaşdırma deməkdir. Kurikulum təkcə təlim metodu deyil, məktəb və tədrislə bağlı olan bütün sahələri planlaşdırmanı həyata keçirən öyrənmə nəzəriyyəsidir.
***Açar sözlər:*** *kurikulum, interaktiv, təlim, metod, inteqrasiya*

**Резюме.** В статье повествуется о важности изменения содержания образования и разработки новых методов и приемов. Интерактивный метод как педагогический метод позволяет учащимся приобретать новые знания в процессе общения друг с другом через различные источники информации (учебник, карта, таблица, технические ресурсы и др.) с участием учителя. Курикулум подразумевает подготовку интерактивных учебных планов. Это означает планирование на основе результатов. Учебный план – это не только метод обучения, но и теория обучения, которая направляет планирование всех областей, связанных со школьным обучением и преподаванием.
***Ключевые слова:*** *курикулум, интерактивный, обучение, метод, интеграция*

**Summary.** The article talks about the importance of changing the content of education and the development of new methods and methods. The interactive method as a pedagogical method allows students to acquire new knowledge in the process of communicating with each other through various sources of

information (textbook, map, table, technical resources, etc.) with the participation of the teacher. Curriculum means the preparation of interactive educational plans. It means outcome based planning. Curriculum is not only a method of teaching, but a theory of learning that guides the planning of all areas related to schooling and teaching.

***Key words:*** *curriculum, interactive, training, method, integration*

Öz dövlət müstəqilliyini bərpa etmiş, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda uğurla addımlayan Azərbaycan xalqı siyasi, iqtisadi və mədəni sahələrdə ciddi islahatlar aparmaqla sivil dünyaya inteqrasiya olunmaqdadır. Buna uyğun olaraq təhsil sistemimiz də öz məzmununu, strukturunu və ümumilikdə xarakterini milli ənənələri, mövcud təcrübəni nəzərə alaraq gələcəyə, inkişafa yönələn istiqamətlərdə dəyişməkdədir. Milli zəminə, bəşəri dəyərlərə söykənən demokratikləşmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya kimi prinsiplərə üstünlük verən, təhsilalanın (şagirdin, tələbənin) bu prosesin əsas subyektinə çevrilməsini özünə əsas vəzifə hesab edən yeni Təhsil sistemi yaradılmaqdadır.

Bugünkü təlim qarşısında həlli çox mürəkkəb olan bir neçə sual durur:

1. Şagirdlərin maksimum nailiyyətlərini necə təmin edə bilərik?

2. Hansı yolla əmin ola bilərik ki, dərsdə verdiyimiz bilik, aşıladığımız bacarıq və vərdişlər bütün şagirdlər tərəfindən mənimsənilmişdir?

3. Biz necə əmin ola bilərik ki, müəllimlər həqiqətən tədris etməli olduqlarını təlim edirlər?

Keçən əsrin 90-cı illərindən milli şüurun oyanması, məktəbə, xüsusilə ana dilimizin tədrisinə münasibəti tamamilə dəyişdi. Təlimdə milli şüurun formalaşması və zənginləşməsi, idrak fəaliyyətinin inkişafı, təhsilin məzmununun dəyişməsi yeni metod və üsulların tətbiqini tələb edirdi.

Hazırda Azərbaycan məktəblərində interaktiv kurikulum konsepsiyasının tətbiqi ideyası geniş vüsət almışdır və onun tətbiqi məqsədilə metodiki göstərişlər hazırlanır, belə proqramlarla təlim keçəcək müəllimlər kurslara cəlb olunurlar.

İnteraktiv metod pedaqoji təlim üsulu kimi müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələri (dərslik, xəritə, cədvəl, texniki vəsaitlər və s) və ya bir-birilə ünsiyyət prosesində yeni biliklər əldə etməsinə imkan verən bütün təlim üsullarının məcmusundan ibarətdir.

İnteraktiv təlim metodlarının əsas məğzi, başlıca məqsədi hər bir uşağı, hər bir fərdi həmin dərsdə maksimum dərəcə inkişaf etdirməkdən, fəallaşdırmaqdan ibarətdir. Bu təlimə görə sinifdə 20 şagirddən 19-u inkişaf üçün nə isə götürübsə, yalnız biri mənimsəmədən kənarda qalıbsa, deməli, dərs prosesi daxilində fəallıq nəzərdə tutulan dərs baş tutmayıb. Çünki bu metod hər bir şagirdə yönəlib, hər bir şagirdin psixoloji, fizioloji, fərdi inkişafları nəzərdə alınmaqla onun maksimum inkişaf etdirilməsini nəzərdə tutur.

Bu metod bizim təhsil sistemimizə uyğundur, ona görə ki, Azərbaycan Təhsil sistemi strategiyasının əsasını şəxsiyyətyönlü olması, əsas istiqamətlərin isə təhsil alana yönəlməsi təşkil edir. Bu isə interaktiv metodda olduğu kimi sinifdə müəllimlə şagird arasında pedaqoji əməkdaşlıq yaranmasının, müsahibəyə geniş yer verilməsini nəzərdə tutur.

İnteraktiv kurikulum interaktiv təlim metodlarından biridir. İnteqrasiya ayrı-ayrı fənlər üzrə ümumi olan sahələrin birgə öyrədilməsi deməkdir. Bu metod bəzən hətta eyni saatda iki müəllimin şagirdlərə dərs deməsini, blok-dərs aparılmasını və beləliklə, dərsin keyfiyyətinin, səmərəsinin artırılmasını istisna etmir.

Kurikulum interaktiv tədris planlarının hazırlanması deməkdir. Nəticəyə əsaslanan planlaşdırma deməkdir. Kurikulum təkcə təlim metodu deyil, məktəb və təhsillə bağlı olan bütün sahələri planlaşdırma, öyrənmə nəzəriyyəsi və idarəetməni əhatə edir.

Biz kurikulumun bir sahəsi – öyrənmə nəzəriyyəsi haqqında məlumat verəcəyik. İnteqrasiyanın (kurikulumu əlaqələndirməyin) ən geniş yayılmış növü, mövzu və ya problemə bir neçə fənnin mövqeyindən yanaşmaqdır. Məsələn, Azərbaycan dili dərslərində fonetikanın tədrisi prosesində səslərin öyrənilməsi zamanı təkcə dilçilik elminin nailiyyətləri deyil, səslə bağlı bütün elmlərdən və ya bir neçə elmdən – fiziologiya, fizika və digər elmlərdən birgə məlumatlar cəmlənməli, səs bəhsinə aid bu elm sahələrindəki biliklər arasında əlaqəni şagirdlərin özlə-

rinin yaratması üçün zəmin hazırlanmalıdır. Belə dərs prosesində şagirdlər müqayisə edə bilir, analitik zehni iş görür, yaradıcı əməyi öyrənir, araşdırma bacarığı qazanırlar.

İnteraktiv kurikulum konsepsiyasının bir çox modelləri vardır: fraqmentli model, əlaqələndirilmiş model, yuva modeli, ardıcıllıq modeli, birgə (ümumi) model, torşəkilli model, zəncirvari model və s. Hazırda interaktiv metodun ABŞ-da fəaliyyətdə olan 280-ə yaxın üsullarından Azərbaycanda 28-i haqqında məlumat vardır. Bizdə olan əsas üsullar bunlardır: işgüzar səs-küy, ümumi diskussiyalar, müsahibə, əqli hücum, layihələrin hazırlanması və s. Bu üsulların bəziləri haqqında qısa məlumat vermək istəyirik.

Ümumi diskussiya zamanı şagirdlər müəllimin təklif etdiyi problemlə əlaqədar cütlərə və ya qruplara bölünərək qısamüddətli fikir mübadiləsi aparırlar. Çalışmaq lazımdır ki, şagirdlərin hamısı qrupların tərkibində diskussiyaya cəlb edilsinlər.

"Sözün mənasını necə izah etməli" mövzusunun öyrənilməsi zamanı interaktiv kurikulumun ümumi diskussiya modelindən istifadə etmək mənimsəmənin səviyyəsini artırır. Bu məqsədlə məna anlayışının məntiq, fəlsəfə, semantika və semasiologiyada necə şərh edildiyi izah, şərh edilməlidir. Bu zaman problemin şərhində bir neçə müəllimin iştirakı daha yaxşı nəticə verər, dərs canlı və maraqlı keçər.

Bu məqsədlə şagirdlər 2-3 qrupa bölünür. Qruplar müvafiq olaraq sol və sağ sütunda verilmiş sözlərin leksik mənalarını müəyyənləşdirməli, izahlı lüğətlə dəqiqləşdirməli və cümlədə işlətməyi, onları yazılı və şifahi nitqə daxil etməyi bacarmalıdır. İş prosesində şagirdlərə aydın olur ki, sütunda verilmiş sözlər yazılış və məna cəhətdən fərqlənirlər (mətn-mətin, əsr-əsir, əmr-əmir və s). Şagirdlərin qrup halında fəaliyyəti onları birgə işləməyə həvəsləndirir, bir-birinin fikrinə hörmətlə yanaşmağı öyrədir, aralarında lider seçməyə imkan verir, diskussiyada bütün şagirdlərin iştirakını təmin edir.

İnteraktiv kurikulumun başqa bir modeli əqli hücum adlanır. Əqli hücum vasitəsilə dərs prosesində şagirdlərin fəallığının rəğbətləndirilməsinə və onlar tərəfindən ideyaların sərbəst olaraq irəli sürülməsinə şərait yaradılır.

Daha bir model kurikulum layihələrinin hazırlanmasıdır. Bu model şagirdlər tərəfindən müəyyən müddət ərzində müxtəlif problemlər, hadisələr, proseslər üzrə müstəqil şəkildə tədqiqat aparılması və bitkin işin təqdim olunması metodudur.

İnteraktiv kurikulum interaktiv metodlar silsiləsinin bir həlqəsi kimi elə fəaliyyətlərə və təcrübələrə aid olur ki, bir neçə fənn üzrə oxşar mövzu eyni vaxtda tədris olunur, yəni tədris planı elə tutulur ki, məsələn səslərin əmələ gəlməsi bəhsi müxtəlif siniflərdə, müxtəlif fənlərdən eyni gündə, eyni saatda öyrədilir. Bununla əlaqədar adı çəkilən metodun üç əsas sahəsi məlumdur:

1. Çoxfənli kurikulum.
2. Fənlərarası kurikulum.
3. Transdisplinar kurikulum.

Fənlərarası kurikulum təkcə müxtəlif fənlərin bir-biri ilə əlaqələndirilməsindən ibarət deyil. İnteraktiv kurikulumdan istifadə edən müəllimlər, adətən, şagirdləri mənalı (şüurlu) öyrənməyə cəlb edən yaradıcı sinif mühiti təşkil edirlər.

Bu o deməkdir ki, fənlərarası əlaqə eyni məlumatın müxtəlif fənlərdə necə verilməsini çatdırmaqdan ibarət deyil, bu məlumatları şüurlu mənimsəməyə cəlb edən, yönəldən, istiqamətləndirən bir mühitin yaradılması və onun tədris planında əks olunmasıdır. Bunun üçün müəllimdə yüksək şövq, həvəs və hazırlıq olmalıdır. Həvəssiz, xüsusi ruh yüksəkliyi ilə çatdırılmayan məlumat nə qədər zəngin olsa da şagirdi yorur, onu cəlb etmir, marağını coşdurmur, dərs cansıxıcı, sönük olur.

Haqqında məlumat verdiyimiz metod, üsul və modellərin tətbiqi gələcəyə, nəticəyə istiqamətləndirən kurikulumlar, həyati bacarıqlara əsaslanan təlim başlıca olaraq bir məqsədə - bütün pillələrdən olan təlim-tərbiyə müəssisələrində təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edir.

Ümid etmək olar ki, onların Azərbaycan təhsil sisteminə tətbiqi təhsilin inkişafında öz bəhrəsini verəcəkdir.

**Problemin aktuallığı.** İnteraktiv kurikulum konsepsiyasının bir çox modelləri (fraqmentli model, əlaqələndirilmiş model, yuva modeli, ardıcıllıq modeli, birgə (ümumi) model, tor şəkilli model, zəncirvari model və s.) və bu modellərin Azərbaycan təhsil sistemində tətbiqi məsələlərinə yeni bir yanaşma mühüm bir vəzifə kimi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə interaktiv kurikulum layihələrində vacib məsələlərə diqqətin

artırılması və Azərbaycanda inkişaf perspektivləri əsaslandırılaraq diqqətə çatdırılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış məsələlər, əsaslandırılmış fikirlər təlim prosesində istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Cəfərova, N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə / - N. Cəfərova Bakı: ADPU, -2019.
2. Həsənov M. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları / M. Həsənov M., N. Cəfərova, C. Bəhmənova. - Bakı: Elm və təhsil, -2014
3. Paşayev, Ə.X. Pedaqogika. Yeni kurs. / Ə.X. Paşayev, F.A. Rüstəmov -Bakı: Elm və təhsil, -2012. - 159 s.
4. Nəzərov, A.M. Müasir təlim texnologiyaları. / A.M. Nəzərov -Bakı: ADPU-nun nəşriyyatı, -2012, - 103 s.
5. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. -Bakı, -2009.
6. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). Kurikulum, 2010, №3
7. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları -Bakı: Təhsil, -2008.
8. Veyisova Z. Fəal (interaktiv) təlim. Müəllim üçün vəsait, UNİSEF, 2009.

**E-mail:** ruqiyye.babashova@bk.ru
**Rəyçilər**: *filol.ü.fəls.dok*. **E. Eminaliyev,**
*dosent* **E. Abışov**
**Redaksiyaya daxil olub:** 12.06.2023.